


# Həzrəti Mövlana zirvəsi

*Bir anlıq təsəvvür edəndə ki, günəş öz parlaq şöləsini yer üzünə paylayıb, qızılı tellərini aləmə saçmayacaq, bu zaman gözlərim önündə dəhşətli bir zülmət canlanır. Zülmətin xofundan insanın damarlarında qanı donur. Bir an dünyanın öz çevrəsindən çıxdığını təsəvvür edirsən. Bax eləcə 800 il insanların iç dünyasını öz nuruna qərq edən, ürəklərdə xoş duyğular bitirən, kiçikdən böyüyə qədər sevgi adlı möhtəşəm hissin – həyəcanın incəliyini, sirli-sehirli cazibəsini çox sərrast, ustalıqla könüllərə hopduran Əfəndimiz, ağamız Hz. Mövlana dühasının, eşqinin nuruna xələl gələrsə, elə o andaca insanın iç dünyasında aramsız döyünən qəlbi susar, dayanar.*

qiyməti, yeri olurdu. Məsələn, Fenni Dədənin «Vaza içində çiçəkləri», Dərviş Süleymanın gülləri və bir çox buna bənzər rəsm əsərləri yada düşür. Hz. Mövlana sənətin bütün qollarına yer verdiyi qədər, rəsmə də önəm vermişdir. Bu böyük mürşüd sadə axirəti xatırlatmış deyil, dünyanı da sevməyi öyrətmişdir. Ümidsizlərə ümid yeri olmuş, günahkarlara təsəlli qapılarını açıq qoymuş və sevgi, şəfqət göstərmişdir.

Hz. Mövlanadan bu günə gəlib çıxan bir müqəddəs rəqs var ki, ona səma rəqsi deyirlər. Bu oyun öz gözəlliyi ilə insanı ehtirasa gətirir. Səma rəqsində olan incəlik, dolğunluq, qüdrət, insan varlığını büsbütün çulğalayır. Gözəllik adlı bir aləmə düşürsən. Bir çox yüngül rəqslərdən fərqli olaraq, Səma rəqsinin aliliyini ruhən duyursan. Bu günkü günümüzdə nurla dolu, dolğun, incə ruhlu Səma rəqsini bizə miras qoyan, Ağamız Hz. Mövlanaya borcluyuq. Mənə elə gəlir ki, dünya durduqca Hz. Mövlana günəş tək nur saçacaq, onun ətrafında isə rəqs edən səmazənlər olacaq. Hz. Mövlananı sevən, onun əsərlərini təhlil edən alimlər dəqiq bilirlər ki, səsiylə insanların ruhuna sirayət edən «Ney»in möcüzəsi nə deməkdir. Söz adamlarının neyə həsr etdiklər şeir, Mövlananı zikr etməklərinə bərabərdir. İnsanların içindən doğan «hu» kəlməsi neyin səsinə çox bənzər. Neydən gələn səs, öz ahəngiylə səmaya ucalar. Yer üzünü cənnətə çevirər. Tokadizade Şekib bəy görün neyi necə gözəl vəsf etmişdir.

*«Gəlmişdi sumai cana bir «hu» neyden.*
*Pür vecd olup el çektim o dem her şeyden.»*

Neyi dinləməyən, onun sehrinə düşməyən kəs, onun incə ruhundan bəhs edə bilməz. Mənim nəzərimdə neyin səsi insan qəlbinin ruhi qidasıdır.

Ney səsi yolunu azanlara kömək edər, onları düz yola çəkər. Bir sözlə könülləri gözəlləşdirər. Bir türk şairi ney haqqında belə demişdir:

*«Neye halk etdi deme Hz. Mevla Nayı?*
*Halka bildirmek için hz-i mevlanayı.»*

Hz. Mövlanaya bir çoxları ancaq şair kimi baxmaqla sözsüz ki, yanılırlar.

Hz.Pir özü də bunu hər an etiraf etmişdir. Lakin öz dövrünün insanları məhz onun öz dilindən şeirlər dinləmək istər, ondan böyük zövq, ləzzət alardılar. Hz. Mövlana da heç kimin qəlbinə dəyməmək üçün şeirlərini zövqlə söyləyərdi. Və o özünü şairlikdən daha yüksəkliklərdə görərdi.

*«Ben onu bunu bilmem ben aşk kadehiyle mest olmuşum»* - deyərdi.

Və özünü haqq aşığı sayardı. Mövlananın mübarək dodaqlarından süzülən şeir yazılmasaydı, biz Mövlananı tanımayacaqdıq. Hz. Mövlananı tam mənasında tanımaq istəyən, sözsüz ki, onun şeir ümmanına baş vurmalıdır. Və o zaman onun eşqi, imanı, duyğuları və həyəcanının şahidi olarıq. Hz. Mövlana deyərdi:

«Benim bu sözlerim, bu söyleyişlerim hallerime perdedir, Gül bahçesine benziyen gönlüm diken gibi olan düşüncemden utanmaktadır...»

«Ey varlığı bilinen, hiss edilen Allahım! Seni tam hakikatınla, şanına yaraşır bir şekilde bilemedik...» Hz. Mövlanaya hər an elə gələrdi ki, Allahın böyüklüyünü ona layiq olan qədər vəsf edə bilmir. Lakin biz Mövlananın əsərlərini oxuduqca Tanrının böyüklüyünün bir daha şahidi oluruq. Hz. Mövlananın könlündə, hissində olan qənirsiz ilahi sevginin nurunu, işığını öz könlümüzə sirayət etdiyini hiss edirik.

Hz. Mövlananın əsərlərində əsasən də «Mənəvi-Şərif»də insan tərbiyəsinin, əxlaqının, könül paklığının ucalığından söz açılır. İnsan qəlbinin incəliyi o qədər özəlliklə təhlil olunur ki, bu məktəbi öyrənənləri sevgiylə bəhrələndirir. «Məsnəvi»də oxuduğumuz nəsihət ruhlu hekayətlər oxucunu vəcdə gətirib, düz yola çəkir. Hz. Mövlana əsərlərinin böyüklüyü ondadır ki, onun tilsiminə düşən kəs, Tanrıya ucalan gözəlliklərdən, alilikdən əl çəkə bilməz. Məhz bu hünərinə görə Hz. Mövlana Böyük Türk İslam təsəvvüfçüsü, məna əsərlərinin öndəri, aşiqlərin sər-

vəri və könüllər sultanı adlandırılmışdır. Şəms Təbrizi Hz. Mövlana haqqında belə söyləmişdir: «Peyğəmbəri görmək istəyənlər Mövlanaya baxsın. Onların hal və hərəkətləri ondadır».

Deyirlər ki, bir gün Hz. Mövlana şəhər çarşısının yanından keçərkən xoş simalı bir insan, ona yaxınlaşıb əllərini öpür.

«Aləmin sərrafı məni tanı… ,» deyərək qeyb olur. Bu adam – Təbrizli Şəms idi. Elə o gündən Hz. Mövlananı yanmağa hazır olan çırağa, Şəms Təbrizini isə kibritə bənzətmişlər. Hz. Mövlana ilə Şəmsin ruhən birləşməsini oğlu Sultan Vələd «Coşqun dalğalar içində bir-birinə qovuşan iki dəniz»ə bənzədirdi. Bu misli görünməyən nəhəng şəxsiyyət təsəvvür elminin sultanına çevrilmişdir. İnsanlar arasındakı din və məzhəb fərqini Hz. Mövlana sevmək və qarışmaq üçün əngəl görməmişdir. O deyərdi:

*«Gəl, gəl, nə olursan ol, yenə gəl!*
*Kafir, Büdpərəst, Mecusi olsan da, yenə gəl!*
*Bizim dərgahımız ümidsizlik dərgahı deyildir:*
*Yüz kərə tövbəni pozmuş olsan da, yenə gəl!»*

Hər canlı fani olduğu kimi, Hz. Mövlana da ömrünün son günlərini yaşayırdı. Ölməzdən əvvəl məşhur bir qəzəlində belə söyləmişdir: «Öldüyüm gün götürülərkən, məndə bu dünya dərdi var, sanma. Mənim üçün ağlama, yazıq, vay-vay demə. Şeytanın tuzağına düşərsən. O zaman eyvah deyənin vaxtıdır. Cənazəni gömdüyün gün ayrılıq demə. Mənim buluşmam-qovuşmam bu zaman olacaq. Məni torpağa verdiyin zaman, əlvida-əlvida deməyə çalışma. Məzar cənnət dünyasının pərdəsidir. Batmağı gördün deyilmi? Doğmağı da seyr et. Günəşlə aya qürublardan, heç bir ziyan gələrmi.»

İnsanların yeniləşməyə, avropalaşmağa can atdığı zamanda Hz. Mövlananın isti nəfəsinə, sevgi dolu ruhuna nə qədər möhtacıq. Mövlana Türk-İslam düşüncəsinin yeni, təzə bir yolunu gətirməklə sevənlərin könlündə başqa bir yer tutmuşdur. «Ölümdən sonra məzarımı yerdə arama, ariflərin könüllərindədir bizim məzarımız» Hz. Mövlana dəfələrlə belə bir etiraf etmişdir: «Hər nə qədər farsca söyləsəm də, əslim Türkdür». Böyük alman şairi Höte, Hz. Mövlanaya heyranlığı üzündən farsca öyrənmiş, bir də «Divan» yazmış, Rembrand Hz. Mövlananın tablosunu işləmiş, İranlı Molla Cami, «Peyğəmbər deyil, amma kitabı var» söyləmiş, fransız şairi Mauriçe Barres «Mövlana işığından nurlanan bir kəs başqa nur istəməz» demişdir.

Hz. Mövlana haqqında cildlərlə kitablar, həyatı, yaradıcılığı ilə bağlı elmi əsərlər yazılıb. Bir çox insanlar elmlər namizədi, doktorluq elmi adına yiyələniblər. Mənim isə bu müqəddəsə sevgim tam başqadır.

Bu təmənnasız sevginin yolu o qədər mənalıdır ki, bu incə yolu gedə-gedə haqq yoluna çatmağın gözəlliyini dərk edirsən. Bu yolun əzabını, ağrısını, əlvanlığını, paklığını olduğu kimi qəbul edirsən. Qəlbinin səsini ney səsinin saf, təmiz tellərində kökləyirsən. Tanrının eşidə biləcəyi ney sədaları altında gediləcək yol, insanlığın özüdür. İllərdi kimsədən xəbərsiz, gözə görünməz bir xəyal kimi əlimdə əsam, bir də nəfsin açarı, Sultanım Hz. Mövlananın izinə düşüb, onun qurub yaratdığı insan bağçasına tərəf, bütün gözəlliklərdən pay ala-ala gedirəm. Və inanıram ki, bu yolun ölməzliyini, gözəlliyini qoruyan müridlər nəsil-nəsil artacaq, kamilliyin zirvəsinə ucalacaqlar. Qoy tanrım bu yolun yolçularına kömək olsun.

**Fəridə HACIYEVA**